# Gənclik və gözəllik şairi



Ədəbiyyat salnaməmizdə elə istedad sahibləri vardır ki, onların qoyub getdikləri mənəvi irs heç zaman köhnəlmir, əksinə əsrlər ötdükcə müəllifini daha da şöhrətləndirir. Şair, tərcüməçi, ictimai xadim Ənvər Əlibəyli də məhz belə istedad sahiblərindəndir. O deyirdi ki, yaşamaq istəyirəm o qədər ki insanlara lazımam. Yaşadı, amma insanlara lazım olan qədər yaşaya bilmədi Ənvər Əlibəyli. Ömrünün ən kamilləşən, müdrikləşən bir məqamında dünyaya əlvida dedi. Yarım əsri yenicə arxada qoymuşdu. Ömrünün 52-ci baharında doğmalarına, yaxınlarına, onu sevən yüzlərlə oxucusuna və uzun illər çalışdığı AzTV-də reallaşdıracağı neçə-neçə arzuya-istəyə əlvida dedi. Lakin o, bu gün də yazdığı şeirlərdə, bu şeirlərə bəstələnmiş nəğmələrdə, jurnalistikanın sirlərini öyrətdiyi neçə-neçə qələm adamının yaddaşında özünə əbədiyaşarlıq qazanıb. Ömrünü xalqına təmənnasız xidmətə həsr edən unudulmaz şairimiz Ənvər Əlibəyli bu gün də dərin ehtiramla yad edilir. Aprelin 12-də Bakı Şəhər Mədəniyyət və Turizm Baş İdarəsinin Binəqədi rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemində (MKS) təşkil edilən tanınmış şair, tərcüməçi, ictimai xadim Ənvər Əlibəylinin 100 illik yubileyinə həsr olunmuş “Gənclik və gözəllik şairi” adlı tədbir də məhz ona, onun sənətinə olan tükənməz sevginin göstəricisi idi.

AZƏRTAC xəbər verir ki, elm, ədəbiyyat, mədəniyyət və incəsənət xadimlərinin, ictimaiyyət nümayəndələrinin iştirak etdikləri tədbirdə Bakı Slavyan Universitetinin dosenti Fərrux Məmmədov böyük şair, tanınmış ziyalı Ə.Əlibəylinin həyat və yaradıcılığından söhbət açıb. Bildirib ki, qısa, ancaq mənalı ömür yaşayan şair Ənvər Əlibəyli Vətən torpağının füsunkar gözəlliklərindən vəcdə gəlib qələmə könül vermişdi. Onun musiqiyə yatan həlim, həzin şeirlərinə Qara Qarayev, Rauf Hacıyev, Cahangir Cahangirov, İbrahim Topçubaşov, Səid Rüstəmov, Hökümə Nəcəfova və başqa sənətkarların şux, yaddaqalan mahnılar bəstələməsi heç də təsadüfi deyildi. Onun sözlərinə yazılmış “Azərbaycan”, “Sevgilim”, “Gəlmədin”, “İlk məhəbbətim”, “Gəl-gəl”, “Xəzərim”, “Qəşəng qızlar”, “Narınc”, “Hamıdan göyçək”, “Söz olmasaydı” və s. mahnılar musiqi xəzinəmizim parlaq səhifələrini və müğənnilərimizin repertuarını bəzəyir.

Tədbirdə çıxış edən Əməkdar İncəsənət Xadimi İntiqam Qasımzadə bildirib ki, parlaq və yaradıcı şəxsiyyət olan şairin bir çox əsərlərində folklorumuzun, xalq yaradıcılığımızın ruhu, nəfəsi duyulur. O, bu mənbədən kövrək və xəfif duyğularını dolğun ifadə etmək üçün yaradıcı şəkildə faydalanıb. Onun şair təxəyyülü, fikri poetik cəhətdən çox gözəl mənalanıb.

Vurğulanıb ki, Ənvər Əlibəyli həm də bir neçə poemanın müəllifidir. “Samur dastanı” poeması Samur çayının suyunu çəkib susuz çöllərimizə çatdıran inşaatçıların əməyindən bəhs edir. Əsərdə lirizm ilə epos maraqlı şəkildə bir-birinə qovuşur. “Bacı”, “Gözlər, ürəklər, əməllər” poemalarında 1941-1945-ci illərin qanlı-qadalı hadisələrindən, “Dalğalar arasında” poemasında dəniz neftçilərinin şücaətindən, “Polad”, “Dostluq körpüsü”ndə isə yaxın keçmişdə baş verənlərdən danışılır.

Bildirilib ki, şairin təkcə “Azərbaycan” və “Qaranquş” şeirləri onun ədəbiyyat tariximizdə qalması üçün kifayət edərdi. Onun “Azərbaycan” şeirinə bəstəkar Rauf Hacıyevin bəstələdiyi mahnı isə dillər əzbəri olub. Mahnını görkəmli müğənni, Xalq Artisti Rəşid Behbudovun ifasında dinləyərkən xəyal insanı öz dünyasından qoparır. Fikrində yurdun təbiət mənzərələri: yaşıl yamacları, sıx ormanları, barlı-bərəkətli çölləri canlanır.

Vurğulanıb ki, Ənvər Əlibəyli yaradıcılığında Vətən torpağının daim tərənnüm edildiyi aydın görünür və duyulur. O, bu şeirləri ilə insan qəlbinin zənginliklərinə varır. İncə duyğuları, zərif hissləri dərindən mənalandırır və gözəl poetik parçalara çevirməyi bacarır. Beləliklə, əsl ürək, qəlb şairinə çevrilir. Bu səbəbdən də sözlərinə yazılmış mahnıların çoxu ürəkləri fəth edir, indi də incəsənət ustalarının repertuarını bəzəyir. Şairin “Qaranquş”, “Sənin adınla”, “İlk məhəbbət”, “Elə xoşbəxtəm ki...”, “Dostluq körpüsü”, “Mingəçevir şeirləri” və digər 8 kitabı çap olunub. O, eyni zamanda Puşkin, Nekrasov və s. ədiblərin əsərlərini dilimizə çevirib.

Çıxış edənlər vurğulayıblar ki, Ənvər Əlibəyli 1948-1952-ci illərdə Azərbaycan Yazıçılar İttifaqının orqanı olan “Ədəbiyyat” qəzetinin redaktoru, 1952-ci ildən ömrünün axırınadək isə Respublika Radio və Televiziya Verilişləri Komitəsinin sədri vəzifələrində çalışıb.

Bildirilib ki, Ənvər Əlibəylinin şeir və poemaları rus dilinə, keçmiş SSRİ xalqlarının dillərinə tərcümə edilib. “Bəxtiyar”, “Qara daşlar”, “Qızmar günəş altında” və digər filmlərdə səslənən mahnı mətnləri isə ona əbədiyaşarlıq qazandırıb. O, təbiət etibarilə lirik şair olub və ömrünün sonunadək bu yaradıcılıq amalına sadiq qalıb. Ona görə də onun əsərləri zərif, hay-küydən və gurultudan uzaq olub.

Vətənində azadlığın, haqq-ədalətin qələbə çalmasını istəyən şairin əsərləri bu gün üçün də aktualdır. Səngərlərimizdə gecə-gündüz




ayıq olan əsgərlərimiz üçün yazıb elə bil bu misraları:

*Mən yaşamaq istəyirəm igid kimi, ər kimi,*
*Mən ölmək istəyirəm səngərdə əsgər kimi.*

Şairin qızı, filologiya elmləri doktoru, professor Şəfəq Əlibəyli onun çox mehriban, qayğıkeş, səmimi, diqqətçil ailə başçısı, həyat yoldaşı və ata olduğunu söyləyib. Atasının baharda dünyaya gəldiyini, özünün də bahar kimi coşub-çağladığını bildirib.

İkinci Dünya müharibəsi zamanı cəbhəyə gedən və orada dörd il vuruşduqdan sonra çiynindən ağır yaralanan atasının sinəsini Bakıya dönərkən “Qırmızı Ulduz”, ikinci dərəcəli “Vətən Müharibəsi” ordenləri bəzədiyini bildirib. Onun qələbə xəbərini Mərdəkandakı hospitalda müalicə olunarkən aldığını söyləyib. Vətənini, xalqını ürəkdən sevən şairin gələcəyə, gənclərə böyük ümid bəslədiyini vurğulayıb.

Tədbirdə 26 nömrəli Uşaq və Gənclər Yaradıcılıq Mərkəzinin üzvlərinin ifasında şairin şeirlərindən ibarət kompozisiya təqdim olunub.

Şairin qızı Şəlalə Əlibəyli tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirib.

Sonda tədbir iştirakçıları şairin kitablarından ibarət sərgi ilə tanış olub və şairin sözlərinə yazılmış mahnılarından ibarət disk kitabxanaya hədiyyə edilib.

AZƏRTAC